AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Kapital Bank
BİRİNCİ BANK

# Respublika Fənn Olimpiadaları

Rayon (Şəhər) mərhələsi

# Azərbaycan dili və ədəbiyyat

Ad ____________________

Soyad ____________________

Məktəb ____________________

1. İmtahan müddəti 90 dəqiqədir.
2. 4 səhv cavab 1 düz cavabı aparır.
3. Hər sual 4 bal ilə qiymətləndirilir.
4. Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
5. Rayon (Şəhər) mərhələsinin nəticələrini www.olimpiada.edu.az saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**UĞURLAR!**

## 10-cu sinif

04.02.2018

**1.** Əşyanın sinonim adlarından heç birinə uyğun ***olmayan*** variant hansıdır?



| | | |
|---|---|---|
| 1 - .............. | 2 - ................ | 3 - ................ |

A) Leksik yolla yaranmışdır.
B) Sait səslərin sayı samitlərdən daha çoxdur.
C) Başlanğıc formada deyil.
D) Açıq və qapalı saitlər işlənib.
E) Tərkibində sonor samit yoxdur.

**2. Uyğunluğu müəyyənləşdirin:**

*(D - doğru, Y – yanlış)*

| | |
|---|---|
| Yiyəlik halda olan isim cümlənin təyini ola bilmir. | Adlıq halda olan isim təyin, xəbər, mübtəda olur. |
| Təsirlik hal kimi? nəyi? sualına cavab verdikdə tamamlıq, haranı? sualına cavab verdikdə isə zərflik olur. | Yönlük hal şəkilçisi digər hal şəkilçiləri kimi omonimdir. |

A)

| | |
|---|---|
| *Y* | *D* |
| *D* | *Y* |

B)

| | |
|---|---|
| *D* | *Y* |
| *D* | *Y* |

C)

| | |
|---|---|
| *Y* | *D* |
| *Y* | *D* |

D)

| | |
|---|---|
| *Y* | *Y* |
| *D* | *Y* |

E)

| | |
|---|---|
| *D* | *D* |
| *Y* | *D* |

**3. Məntiqi sıranı tamamlaya bilən sözün leksik mənası hansı variantda göstərilmişdir?**
dülgər, zərgər, ... , misgər, əsgər
A) Binaları layihələndirmə, tikmə və bədii cəhətdən tərtib edən şəxs
B) Binanın daş, kərpic hissəsini tikən usta.
C) Qızıldan, gümüşdən bəzək şeyləri düzəldən usta
D) Hiylə işlədən, kələkbaz, fəndgir, məkrli
E) Əllə metaldan müxtəlif əşyalar düzəldən, quraşdıran və ya təmir edən usta.

**4.** *Şeirlər sadəcə qəm, məhrumiyyət, bədbəxtlikdən bəhs etməməlidir, ... ?*
**Bu cümlə aşağıdakılardan hansı ilə davam etdirilə bilməz?**
A) həyatda xeyir və şər qardaş deyilmi
B) musiqimizdə muğamla oynaq havalar yanaşı gəlmirmi
C) insan ömründə faciəli məqamlar da olmurmu
D) oxucunun şeirdən aldığı zövqü məhdudlaşdırmaq lazımdırmı
E) insanları ümidsizliyə salmağın mənası varmı

**5. Funksiyasına görə fərqli şəkilçini ayrıca söz kimi düşünsək, həmin söz verilmiş izahlardan hansına uyğun gələr?**
1. Onlar tələs**mədən** addımlayırdılar.
2. Çalış**qan** şagirdlər uğur qazanır.
3. Dostunun sözləri sanki ürəyinin yarasını qop**ar**dı.
4. Bir**dən** atəş səsləri eşidilməyə başladı.
5. Bu məhsullara tələb**at** lap çox idi.
A) Orqanizmin damarlarında dövr edib, onun bütün hüceyrələrinin qidalanmasını və maddələrin mübadiləsini təmin edən qırmızı maye.
B) Bəzi bitkilərin məhsulunun hər bir dənəsi, ayrı-ayrı toxumu, tumu.
C) Faydalı qazıntı çıxarılan yer
D) Qoşulan və minilən ev heyvanı
E) Həya, abır

**6. Həmcins mübtədalı cümləni müəyyənləşdirin.**

A) Ey günəş yolçusu, günəş yolçusu, hələ silinməmiş qara ləkələr.

B) Arxadan şiddətli bomba və mina səsləri eşidilirdi.

C) Səkinə kiçik budkada su, şərbət, bəzən də kökə satırdı.

D) Saralmış qəzetlər, otağın küncündəki toz basmış kitablar mənə cansıxıcı göründü.

E) Moruq, böyürtkən və qarağat kollarının arasından keçib daxmaya girdim.

**7.** “*Mavi gözləri, sarı saçları şimal torpaqlarından olmasından xəbər verirdi*” **– cümləsində həm həmcins üzvlərdən biri olan, həm də omonim olan söz haqqında hansı fikri söyləmək *olmaz?***

A) Kar samitlə başlayır.
B) Ahəng qanunu gözlənilmişdir.
C) Sifət, feil və qoşma kimi işlənə bilir.
D) Sadə sözdür.
E) Şəkilçi qəbul etmişdir.

**8. Sual işarəsinin yerində yazıla *bilməz:***




A) Danışığını bilməyəni gərək susdurasan.
B) Cücəni payızda sayarlar.
C) Kəndə girəndə çiçəklərin ətrindən məst olursan.
D) Yüz ölç, bir biç.
E) İşlənməyən dəmir pas atar.

**9. Uyğunlaşdırın:**

Dağlar bizi gül çiçəklə qarşıladı. epitet
Məktəb bizi gül çiçəklə qarşıladı. metafor
Uşaqlar müəllimi günəş kimi qarşıladı. təşbeh
Müəllimləri çiçək şagirdlər qarşıladı. metonimiya




**10. Nümunədə işlənmişdir:**

*O səbəbə bura gəlmişəm ki, qorxub gizlənməyəsən, səni də döyüşə hazırlayam.*

1 – səbəb qoşması
2 – səbəb bağlayıcısı
3 – səbəb budaq cümləsi
4 – səbəb zərfliyi
5 – səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlə

A) 2, 3, 4
B) 1, 3, 5
C) 2, 4
D) 3, 4
E) 1, 2, 5

**11. Verilmiş nümunənin sintaktik təhlili ilə bağlı verilənlərdən biri səhvdir.**

*Almanı, heyvanı, narı, turuncu*
*Bu dördünü dərən əllər sevinsin.*

A) Xəbər feilin əmr şəklindədir.
B) Təyin feili sifət tərkibi ilə ifadə olunub.
C) Hər iki baş üzv sadədir.
D) Həmcins tamamlıqlı cümlədir.
E) Təyin ilə mübtəda arasında yanaşma əlaqəsi var.

**12**.




A) - B) zərflik C) xəbər
D) mübtəda E) təyin

**13. Məntiqi baxımdan sual işarəsinin yerinə yazılacaq sözdə aşağıdakı şəkilçilərdən hansı olmalıdır?**




A) –mış$^4$ B) –la$^2$ C) –da$^2$
D) –ası$^2$ E) –dığım$^4$

**14. Tabesiz və tabeli mürəkkəb cümlələr aşağıdakı ölçülərdən biri əsasında fərqləndirilə bilməz:**

A) tərkib hissələrinin sadə cümlənin müxtəlif tipləri ilə ifadə olunma dərəcəsi
B) tərkib hissələrinin məna və qrammatik cəhətdən bağlılıq səciyyəsi
C) tərkib hissələrinin bağlanma vasitələrinə görə səciyyəsi
D) tərkib hissələrində işlənən işarə əvəzliklərinin funksiyası
E) intonasiyanın xarakteri

**15. Dialoqda müəllifin sözü vasitəsiz nitqdən əvvəl işlənibsə, aşağıdakı durğu işarələrindən hansı mütləq istifadə olunub?**

1 - ? (sual) 2 - – (tire)
3 - : (qoşa nöqtə) 4 - ! (nida)
5 – “” (dırnaqlar) 6 - , (vergül)
A) 2, 3 B) 1, 4, 5 C) 2, 3, 5
D) 3, 5 E) 2, 3, 5, 6

**16. Uyğunlaşdırın:**

Acığı tutanda qara daşı kül edən - Beyrək
Dərbənddəki dəmir qapını hücumla alan - Qaragünə
Parasarın Bayburd hasarından sıçrayıb aşan - Alp Ərən
Əlli yeddi qalanın açarını alan - Dəli Dondaz

A) 
B) 
C) 
D) 
E) 

**17. Bu dastanda qədim türklərin əvvəllər kainatın mənzərəsinin necə olması barədəki təsəvvürləri öz əksini tapıb. Dastana görə, tanrı türklərin yaşadığı torpağın da, cəmiyyətin də taleyini müəyyənləşdirir.**

A) “Türklərin törəyişi”
B) “Oğuz xaqan”
C) “Yaradılış”
D) “Ərgənəkon”
E) “Köç”

**18. Haqqında danışılan heç bir şairə uyğun olmayan variantı seçin.**

1 – Gəncədə və Təbrizdə yazıb yaratmışdır, Təbriz zəlzələsi ilə bağlı iki mənzumənin müəllifidir.
2 – XII əsrdə məşhurlaşmış qadın sənətkardır.
3 – Ədəbiyyatımızda ilk poemanın müəllifidir.
4 – Türk ədəbiyyatında dünyəvi poeziyanın ilk örnəyidir.
A) Özünü şahın yox, “yoxsulların şairi” adlandırır.
B) Əruz vəznində sırf türk şeir janrında mərdlik, mübarizlik, cəsarət ideyalarını təbliğ etmişdir.
C) “Ət-təfasir” adlı farsca lüğətin müəllifidir.
D) Quran motivləri əsasında yazılmış anadilli epik poema müəllifidir.
E) İctimai-fəlsəfi məzmunlu rübailəri ilə şöhrət tapmışdır.

**19**. "*Ramazan ayından əvvəlki şaban ayının 15-i gecəsi – günahlardan arınma gecəsi sayılır; ramazan ayının 27-i gecəsi isə Quranın göydən yerə enmə gecəsidir.*" **Yuxarıda qeyd olunanlar haqqında "Sığmazam" (İ.Nəsimi) qəzəlinin hansı misrasında danışılır?**

A) Zat iləyəm sifat ilə, qədr iləyəm bərat ilə...
B) Gənci-nihan mənəm, mən uş, eyni-əyan mənəm, mən uş...
C) Könvü məkandır ayətim, zatidürür bidayətim....
D) Gövhəri-kan mənəm, mən uş, bəhrəvü kanə sığmazam...
E) Ərşlə fərşü kafü nun məndə bulundu cümlə çün....

**20. Ş.İ.Xətayiyə aid edilmiş fikirlərdən biri doğru deyil.**

A) Şairin irihəcmli "Nəsihətnamə" məsnəvisində sufi-qızılbaş ideyalarının təbliğinə geniş yer verilir.
B) Şifahi xalq ədəbiyyatından gen-bol bəhrələnmişdir.
C) 1524-cü ildə 37 yaşı olarkən savaşda məğlub olmuş və vəfat etmişdir.
D) Şeirlərinin böyük qismi səfəvi ideyalarının təbliğinə həsr olunmuşdur.
E) "Dəhnamə" poemasında mifik obrazlardan da istifadə etmişdir.

**21. Təmsil haqqında verilmiş fikirlərdən biri doğru *deyil*:**

A) Həm yazılı, həm də şifahi xalq ədəbiyyatının janrıdır.
B) Bədii gülüşdən istifadə olunur.
C) Nəsihətamiz fikirlər olur.
D) Əsasən, nəzmlə olur.
E) Ya əvvəli, ya da sonu əxlaqi-didaktik hissədən ibarət olur.

**22. N. Gəncəvi "İskəndərnamə" poemasının yazılmasında bu dillərdə olan mənbələrdən istifadə edib:**

1 – yəhudi  2 – nəsrani  3 – türk
4 – ərəb  5 – pəhləvi

A) 1, 3, 4  B) 2, 4, 5  C) 3, 5
D) 1, 5  E) 1, 2, 5

**23. Boşluğu doldurun:**

| | |
|---|---|
| Oçerk | • Real hadisələr əsasında olur.<br>• Publisistik üsluba yaxındır. |
| Roman | • Epik növün ən geniş janrıdır.<br>• Mürəkkəb süjet xətti olur. |
| | • Müəllifin şahidi olduğu hadisədir.<br>• Digər adı memuardır. |

A) novella  B) povest  C) hekayə
D) xatirə  E) pyes

**24. "İskəndərnamə" (N.Gəncəvi) əsərindəki obrazlarla bağlı *uyğunsuzluğu* müəyyənləşdirin:**

| | | |
|---|---|---|
| A) | İskəndər | Nizaminin təxəyyülünün məhsuludur. |
| B) | Niqumaş | İskəndərin təlim-tərbiyəsi üçün əlindən gələni edir. |
| C) | Pələngər | Qonşu ölkələrin var-dövlətini ələ keçirir. |
| D) | Dara | Xalqı ədalətsizliklə idarə edir. |
| E) | Nüşabə | Bərdə hökmdarıdır, Dara tərəfindən əsir götürülür. |

**25. Uyğunlaşdırın:**

1 – Ana dilindədir.
2 – Poemadır.
3 – Ərəb dilindədir.
4 – Nəsr əsəridir.

a) "Bəngü Badə"  b) "Hədiqətüs-süəda"
c) "Həft cam"  d) "Rindü Zahid"
e) "Mətləül-etiqad"

A) 1-a, b; 2-a, c; 3-e; 4-b
B) 1-b; 2-a, c; 3-e; 4-a, b
C) 1-c, d; 2-b; 3-e; 4-b
D) 1-b, d; 2-a, c; 3-c; 4-e
E) 1-e; 2-a, d; 3-e; 4-b, c